***Gülxarə ƏHMƏDOVA***
*AMEA Folklor İnstitutu*
*E-mail:gulxareehmed@gmail.com*
*https://doi.org/10.59849/2309-7922.2025.2.197*

# "DƏDƏ QORQUD" DASTANININ TƏDQİQİ TARİXİNƏ BİR NƏZƏR

**Xülasə**

"Kitabi-Dədə Qorqud" elm aləminə bəlli olduğu vaxtdan bəri durmadan müxtəlif aspektlərdə araşdırılır, haqqında kifayət qədər elmi kitabxana formalaşmışdır. Əhatə etdiyi mövzular və məzmun baxımından "Kitabi-Dədə Qorqud" digər türk dastanları ilə oxşarlıq təşkil etsə də, bir çox məqamlarda orijinallığı ilə seçilir. Epos elm aləminə yazılı abidə kimi məlum olsa da, uzun müddət şifahi ənənədə mövcud olması heç bir tədqiqatçıda şübhə doğurmur. Məhz uzun müddət şifahi ənənədə yaşadığı üçün türk dünyasının müxtəlif coğrafi ərazilərində son dövrlərə qədər eposun müxtəlif variantları hələ də aşkar edilməkdədir.

Elm aləminə ilk dəfə XIX əsrdə məlum olsa da, 2019-cu ildə "Dədə Qorqud"a aid yeni əlyazmanın tapılması, daha sonra Türkiyənin Bursa şəhərində başqa bir yeni əlyazmanın aşkar edilməsi bu möhtəşəm abidə ilə bağlı hələ deyilməli çox sözün olduğunu göstərir.

Dastanlarda xalqımızın qəhrəmanlığı, mübarizliyi, əqidə dönməzliyi, ülvi məhəbbəti, bir sözlə, ən gözəl xüsusiyyətləri öz əksini tapmışdır. O dövrün ictimai-siyasi durumundan bəhs edən dastanlarımızı çatdırmaq, təhlil etmək məsuliyyət tələb edir. Türk xalqının müxtəlif dövrlərdə yaratdığı və yaşatdığı dastanlar mənəviyyatın zənginləşməsinə xidmət etmişdir. "Dədə Qorqud" oğuznamələri türk xalqının ailə həyatını və mübarizəsini mənəvi obrazlarla əks etdirən tarixi mənbələr hesab edilir. Bu dastan oğuzların ən böyük ədəbi abidələrindən biri və qiymətli tarixi mənbədir.

**Açar sözlər:** dastan, qəhrəmanlıq, qaynaq, tədqiq tarixi, mənəvi dəyərlər, milli xüsusiyyətlər

***Gulkhara AHMADOVA***

## A LOOK AT THE HISTORY OF THE RESEARCH OF THE "DEDE QORGUD" EPISTLE

**Summary**

Since it became known to the scientific world, "Kitabi-Dade Qorgud" has been continuously studied in various aspects, and a considerable scientific library has been formed about it. Although "Kitabi-Dade Qorgud" is similar to other Turkic epics in terms of the topics and content it covers, it stands out for its originality in many aspects. Although the epic is known to the scientific world as

a written monument, the fact that it existed in oral tradition for a long time is beyond any researcher's doubt. Precisely because it lived in oral tradition for a long time, various versions of the epic are still being discovered in various geographical areas of the Turkic world until recent times.

Although it was first known to the scientific world in the 19th century, the discovery of a new manuscript belonging to "Dede Qorgud" in 2019, and later the discovery of another new manuscript in the Turkish city of Bursa, show that there is still much to be said about this magnificent monument.

The epics reflect the heroism, fighting spirit, steadfastness, sublime love, in short, the most beautiful features of our people. It is a responsibility to convey and analyze our epics, which tell about the socio-political situation of that time.

The epics created and kept alive by the Turkish people in different periods served to enrich spirituality. The Oghuz chronicles of "Dade Gorgud" are considered historical sources that reflect the family life and struggle of the Turkish people with spiritual images. This epic is one of the greatest literary monuments of the Oghuz and a valuable historical source.

**Key words:** epic, heroism, source, research history, spiritual values, national characteristics

***Гюльхара АХМЕДОВА***

## ВЗГЛЯД НА ИСТОРИЮ ИССЛЕДОВАНИЯ ПОСЛАНИЯ «ДЕДЕ ГОРГУД»

### Резюме

«Книга Деде Горгуда» постоянно изучается в различных аспектах с тех пор, как она стала известна научному миру, и о ней была сформирована значительная научная библиотека. Хотя «Книга Деде Горгуда» по тематике и содержанию похожа на другие турецкие эпосы, во многих отношениях она выделяется своей оригинальностью. Хотя эпос известен научному миру как письменный памятник, ни один исследователь не сомневается, что он долгое время существовал в устной традиции. Именно потому, что эпос долгое время существовал в устной традиции, различные его версии вплоть до недавнего времени обнаруживаются в различных географических регионах тюркского мира.

Хотя научному миру он впервые стал известен в XIX веке, обнаружение новой рукописи «Деде Горгуд» в 2019 году и последующее обнаружение еще одной новой рукописи в турецком городе Бурса показывают, что об этом великолепном памятнике еще многое предстоит рассказать.

В эпосах отражены героизм, боевой дух, стойкость и возвышенная любовь нашего народа, короче говоря, его самые прекрасные черты. Требуется ответственность за передачу и анализ наших былин, повествующих о социально-политической ситуации того времени. Эпосы, созданные и увекове-

ченные турецким народом в разные периоды, служили обогащению духовности. Огузнамеи «Деде Горгуд» считаются историческими источниками, отражающими семейную жизнь и борьбу тюркского народа с духовными образами. Этот эпос является одним из величайших литературных памятников огузов и ценным историческим источником.

**Ключевые слова:** эпос, героизм, источник, история исследования, моральные ценности, национальные особенности

Dastanlarımız qəhrəmanlıq və məhəbbət dastanları olmaqla iki qrupa bölünür. Hər iki mövzu ilə bağlı olan dastanlarımızın müasir tələblər əsasında araşdırılması vacibdir, əhəmiyyətlidir. Dastanlarda xalqımızın qəhrəmanlığı, mübarizliyi, əqidə uğrunda dönməzliyi, ülvi məhəbbəti, bir sözlə, ən gözəl xüsusiyyətləri öz əksini tapır. Dövrün ictimai-siyasi vəziyyətindən xəbər verən dastanlarımızı təhlil etmək məsuliyyət tələb edir. Türk xalqlarının müxtəlif dövrlərdə yaradıb-yaşatdıqları dastanlar mənəviyyatın zənginləşməsinə xidmət etmişdir. Hələ islamiyyətdən öncə türk xalqlarının yaratdıqları "Şu", "Hun", "Oğuz Kağan", "Göytürk" kimi dəyərli dastanlar vardır. Bu dastanlarda igidlik, ərənlik, cəsarət, döyüşkənlik və bir çox yüksək keyfiyyətlər cəmlənmişdir.

"Bütün türk ədəbiyyatını tərəzinin bir gözünə, "Dədə Qorqud"u o biri gözünə qoysanız, yenə də "Dədə Qorqud" ağır basar". Fuad Köprülünün bu sözləri daim tədqiqatçıları bu mövzuya kökləyir. "Dədə Qorqud" oğuznamələri türk xalqının ailə-məişətini, mübarizəsini mənəvi obrazlarla ifadə edən tarixi mənbələrdən hesab edilir. Bu dastan oğuzların ən böyük ədəbi abidələrindən biridir və dəyərli tarixi qaynaqdır. Qəhrəmanlıq dastanımız olan "Dədə Qorqud"da elin ağsaqqalı Dədə Qorqud halallıq nümunəsidir. O, boy boylayır, söz söyləyir, müdriklik göstərir, tövsiyələr verir. Dədə Qorqudun dilindən söylənən ibrətamiz kəlmələr türkün dünyagörüşünün yetkinliyindən xəbər verir.

"Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə əlaqədar bu böyük abidənin dərindən, hərtərəfli öyrənilməsi istiqamətində böyük işlər görüldü. Alimlərimiz "Dastan"ın araşdırılması, təbliği sahəsində çox çalışdılar. Bu araşdırmalar hələ də davam etməkdədir. Folklorşünas alim Ramazan Qafarlı "Kitabi-Dədə Qorqud" Azərbaycan türklərinin ədəbi zirvəsi və mənəviyyat simvoludur" mövzusunda məqaləsində yazır: "Atalarımız demişkən, papaqlarımızı qabağımıza qoyub belə bir sual ətrafında götür-qoy edək ki, son iyirmi ildə əvvəlki dövrlərdə yazılanlardan fərqli nəsə demişikmi? Yaxud mübahisəli məsələlərin hansına tam aydınlıq gətirib qardaşlarımızı ona inandırmışıq? Açığını deyim ki, bir çox məsələlərdə yerimizdə saymağı uğurumuz saymışıq. Ürək ağrıdan isə odur ki, mühüm faktorları (məsələn, Ə.Dəmirçizadənin tutarlı dəlillər əsasında irəli sürdüyü, M.Erginin və bir çoxlarının təsdiqlədiyi – dastanın Azərbaycan türkcəsinə məxsusluğu faktorunu) daha da dərinləşdirmək əvəzinə, üstünə "antaliyalı tərəfindən yazılmışdır" etiketi yapışdırmaqla şübhə toxumu səpmişik. Bununla görülən işlərin əhəmiyyətini azaltmaq istəmirəm. Lakin iyirmi il böyük müddətdir və bu zaman çərçivəsində

bütün elm adamlarının diqqəti "Kitab"a yönəlmişdir. Ötən illərin nailiyyətlərini təzədən çap etdirməklə yanaşı, əsas sorğuya cavab verən tədqiqat işləri yazılmalıdır. Qarşıda duran sorğuya cavab tapmaq mümkündür. Bütün mübahisələrə son qoyub "Kitab"ın Azərbaycanda doğulduğunu əsaslandırmaq vətəndaşlıq borcumuzdur" (7, 13). Həmçinin professor Ramazan Qafarlı "Azərbaycan Qorqudşünaslığı" adlı tədqiqat əsərində "Dədə Qorqud"un araşdırılması tarixini 5 mərhələyə bölür (9, 4-20).

Akademik Tofiq Hacıyev qeyd edir ki, "Kitab"da hər boyun öz qəhrəmanı var, bununla belə, bu boylar bir bütöv bədii abidənin, bütün bir kitab-dastanın tərkibidir, indiki təbirlə, bir əsərin fəsilləridir. Boyların hamısında iştirak edən, daha doğrusu, adı çəkilən, adı keçən Qorquddur ki, görünür, məhz buna görə də yazıya alan tərəfindən "Kitab" onunla adlandırılmışdır... O, bir rəmzdir – türkün ağsaqqala, müdrik söz sahibinə hörmətinin rəmzidir. Boyların hamısı üçün ümumi qəhrəman surəti Böyük Oğuz elidir. Oğuz qəhrəmanlarının həm parçalanaraq üzüzə gəldiyi, həm də ümumi qayə yolunda birləşərək bir bütöv kimi iştirak etdiyi on ikinci boy dastanın bütövlüyünü, boy-boy cəmlənə-cəmlənə gələn Oğuzun dövlətçilik taleyinin bölünməzliyini əyaniləşdirir. Böyük Oğuz Eli (dövləti) bir obraz – qəhrəman kimi qalib gəlir (3, 6). "Kitabi-Dədə Qorqud" dastanları dünya miqyasında həmişə aktual səslənən idealları və müasir çağırışları, ədəbi dəyərləri özündə əks etdirən böyük epos nümunəsi kimi mühüm əhəmiyyətə malikdir (5, 3).

"Dastan"dan qeydə aldığımız bir neçə nümunəyə diqqət edək:

Allah-allah diməyincə işlər onmaz.
Qadir tənri verməyincə ər bayımaz.
Əzəldən yazılmasa, qul başına qəza gəlməz.
Əcəl vədə irməyincə kimsə ölməz.
Ölən adam dirilməz, çıxan can gerü gəlməz.

Bir igidin qara tağ yumrısınca malı olsa, yığar-dərər, tələb eylər, nəsibindən artuğın yeyə bilməz.

Ulaşuban sular taşsa, dəniz tolmaz.
Təkəbbürlük eyləyəni Tənri sevməz.
Könlin yuca tutan ərdə dövlət olmaz.
Yad oğlı saqlamaqla oğul olmaz, - böyüyəndə
salur-gidər, gördüm diməz...
Kül təpəcik olmaz, (Güyəgü oğul olmaz),
Qara eşəg başına üyən ursan, qatır olmaz,
Qaravaşa ton geyürsən, qadın olmaz.

Və ya

Ər, malına qıymayınca adı çığmaz,
Qız anadan görməyincə ögit almaz.
Oğul atadan görməyincə süfrə çəkməz,
Oğul atanın yetiridir, iki gözinin biridir.
Dövlətlü oğıl qopsa, ocağının közidir,

Oğul dəxi neyləsün, baba ölüb mal qalmasa,
Baba malından nə faidə, başda dövlət olmasa...

Göründüyü kimi, bu nümunələr ən yüksək mənəvi dəyərlər aşılayır. Azərbaycan xalqının adət-ənənələri, qonaqpərvərliyi, cəsurluğu və digər dəyərləri ilə bağlı məlumatları ötürən "Dastan"ın psixoloji əsaslarını təhlil süzgəcindən keçirən Elmar Hüseynov yazır: "Kitabi-Dədə Qorqud" xalqa qəhrəman keçmişini, rəşadətli igidlərini, şərəfli tarixini söyləməklə onu mənən ucaltmağa, oyanışa çağırır. Göstərir ki, düşmənə dinc vasitələrlə təslim olmaq, tarixini unutmaq, öz adını atıb, yad adları tutmaq qəbahətdir. Hər bir xalq və ya etnos özünü düzgün dərk edib qiymətləndirmək və inkişaf üçün yalnız özünün sosial-iqtisadi, tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır.

Əsərdən göründüyü kimi, xalqımız hələ o dövrlərdə ailədə yaradılan bir sıra problemlərlə (münasibətlər, fərziyyələr) bağlı fikirlər söyləmişdir. Ailə üzvlərinin problemlərinə dair fikirlərə diqqət yetirsək, görərik ki, fərdi-şəxsidən vahid və ya əlaqələndirici hala gətirilməsi, alt sistemlər arasındakı sərhədlərin keçiriciliyinin dəyişdirilməsi, birbaşa və yaxud dolayı müdaxilə yolu ilə problemlərin həlli üçün alternativ modellərin yaradılması, ailə üzvlərinin birinin simptomatik davranışında ailənin digər üzvlərinin emosional iştirakının azalması və iyerarxik uyğunsuzluğun müxtəlif formaları dastanda tədqiq olunmasında mövzu ola bilər (6, 22).

"Dədə Qorqud" dastanı yarandığı və yayıldığı dövrdə deyil, bu gün də Azərbaycan ədəbiyyatının, mədəniyyətinin əsası olaraq qəbul edilir. "Dastan"da milli mənəvi dəyərlərimizə münasibət bütün dövrlərdə xalqımızın milli birlik hissinin güclənməsinə səbəb olmuşdur. Abidənin dərindən öyrənilməsində Əbdüləzəl Dəmirçizadə, Yaşar Qarayev, Kamal Abdulla, İsa Həbibbəyli, Yeganə İsmayılova, Nizami Cəfərov, Muxtar Kazımoğlu, Ramazan Qafarlı, Seyfəddin Rzasoy, Əzizxan Tanrıverdi, Asif Hacıyev və b. dəyərli tədqiqatlar aparmışlar. "Dastan" qardaş Türkiyədə daim elm adamlarının diqqətindədir. Türk alimlərindən – O.Ş.Gökyayın, M.Erginin, F.Köprülünün, C.Öztellinin, P.N.Boratavın, O.F.Sərtkayanın və b. tədqiqqatlarında geniş yer verilmişdir.

"Dədə Qorqud" dastanının əlyazması ilk dəfə Almaniyanın Drezden kitabxanasından tapılmışdır. Alman şərqşünası Y.Reyski XVIII əsrdə dastanın əlyazmasını əldə etmişdir. Lakin üzərində elmi tədqiqat işi aparmamışdır. Daha sonra kitabxanada kataloqların tərtibi ilə məşğul olan Fleyşer onu səhvən XVI əsr (üzərində 1585 – Osman paşanın ölüm tarixi yazıldığı üçün) əlyazmaları kataloquna daxil etmişdir.

1815-ci ildə şərqşünas Haynrix Fridrix fon Dits əlyazmanın üzünü çıxarmış və Berlin kitabxanasına gətirmişdir. "Dədə Qorqud" dastanını ilk dəfə elmi cəhətdən araşdıran Haynrix Fridrix fon Dits "Dastan"ı tarixi, coğrafi və mətnşünaslıq cəhətdən yüksək dəyərləndirmişdir, qorqudşünaslıq elminin əsasını qoymuşdur. "Asiyadan xatirələr" əsərində Oğuz xalqının dünyagörüşü, adət-ənənələri və s. haqqında geniş bəhs etmişdir. "Dastan"ın Oğuz xalqının dilində yazılması, Təpəgöz mifinin oğuzlarda daha qədim olması və s. məsələləri də diqqətə çatdırmışdır.

V.V.Bartold tərəfindən 1922-ci ildə rus dilində çapa hazırlanmış "Dastan" nəşr edilmir və bu, sonradan 1950-ci ildə Bakıda Həmid Araslı və Məmmədhüseyn Təhmasib tərəfindən nəşr edilir. Türkiyədə "Dastan"ın nəşri 1916-cı ilə aiddir. Kilisli müəllim Rüfətin ərəb əlifbası ilə çapından sonra diqqəti daha da cəlb etmişdir. 1926-cı ildə isə Azərbaycanda qorqudşünaslığın əsasını Əmin Abid qoymuşdur. Həmid Araslı isə ilk nəşrə 1939-cu ildə nail olmuşdur. "Azərbaycanda "Kitabi-Dədə Qorqud"un nüfuzlu tədqiqatçılarından biri olan Əmin Abid eposa həsr olunmuş bir neçə əsər çap etdirdikdən sonra əbədi susduruldu (4, 12-13).

Ulu Öndərin diqqət və qayğısı ilə "Dastan" dünya səviyyəsində təqdim edilir, UNESCO-nun qorunan qeyri-maddi mədəni irs siyahısına daxil edilir. Beynəlxalq konfranslar təşkil edilərək "Dastan" beynəlxalq arenaya çıxarılır. O, xüsusi olaraq vurğulayırdı ki, "Azərbaycan xalqının, bütün türkdilli xalqların böyük abidəsi olan "Kitabi-Dədə Qorqud" 1300 ildir ki yaşayır. Əgər 1300 ildən də öncə "Kitabi-Dədə Qorqud" dastanlarının yaranması üçün xalqımızın nə qədər çalışdığını və nəhayət, bu tarixi abidəni yaratdığını nəzərə alsaq, onda təsəvvür edə bilərik ki, bizim xalqlarımızın nə qədər qədim tarixi, dərin kökləri və nə qədər zəngin mədəniyyəti vardır. Ümummilli Lider Heydər Əliyev onu da qeyd edirdi ki, "faşizmə qarşı mübarizəyə qalxan xalqda qəhrəmanlıq ruhunu canlandırmaq məqsədilə sovet ideoloji maşını "Kitabi-Dədə Qorqud" və "Koroğlu" dastanlarından istifadə etməyə cəhd göstərirdi. Müharibə qurtardıqdan və dinc həyat bərqərar olduqdan sonra gənc nəslin "Kitabi-Dədə Qorqud" ruhunda tərbiyə edilməsi ideoloqlar tərəfindən yasaq olundu. Ədəbiyyata və incəsənətə qarşı yönəldilmiş məşhur "Jdanov qərarları" ab-havasına uyğun olaraq "Kitabi-Dədə Qorqud"a qarşı hücumlar başlandı" (4, 13).

Xüsusilə vurğulayaq ki, Heydər Əliyev müstəqil Azərbaycana rəhbərliyi dövründə "Kitabi-Dədə Qorqud"a daim dəyər verib və onun təbliğini diqqət mərkəzində saxlayıbdır. Ümummilli Liderin 1997-ci il aprelin 20-də imzaladığı Sərəncam əsasında "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin geniş qeyd edilməsi böyük önəm daşıyır. Məhz bu Sərəncamdan sonra vaxtilə qadağalara məruz qalmış "Dastan" haqqında layiqli tədqiqat işləri ortaya qoyulur.

Cəlal Qasımov "Dədə Qorqud" dastanı ilə bağlı qadağalardan bəhs edərkən 4 səbəbi diqqətə çatdırır:

1. Marksizmin klassik irsə baxışları. "Kitabi-Dədə Qorqud" milli-mənəvi əxlaqi və dini dəyərlərimizi özündə yaşatdığına görə marksizmə və leninizmə zidd bir əsər kimi ədəbi səhnədən (müvəqqəti də olsa) yığışdırıldı.

2. Türkün özünə qayıdış çağırışı. Dastanda oğuzun (türkün) mənşəyindən, məişət tərzindən, qəhrəmanlıq, cəngavərlik tarixinə, hətta coğrafi ərazi və məkana qədər hər şey öz əksini tapır. Lakin bütün bunların içindən bir ana xətt də keçir: Qorqud Atanın son boydakı "türkün türkə inamı, əcdada, babaya etiqadı və dəstəyi itəndə vurduğu fəsad" mesajı... Bu nəsihətin sonrakı nəsillərə çatmaması, türkün bir mənəvi bayraq altında birləşməməsi üçün "Kitabi-Dədə Qorqud" "burjuy", "pantürkist" elan edilərək yasaqlanmışdı. Başqa sözlə, Qorqudun vəsiyyətlə-

rini onun nəvələrindən uzun müddət tarix, zaman indi isə bolşeviklər gizlətmək istəyirdilər.

3. Erməni amili. Ermənilər milli-mənəvi dəyərləri və ya mədəniyyət abidələrini özəlləşdirərkən əsasən aşağıdakı prinsipdən çıxış edirdilər:

Birincisi, başqa xalqlara məxsus abidələri özününkü elan etmək;

İkincisi, modifikasiya edərək onları dəyişdirmək;

Üçüncüsü, özəlləşdirə bilmədiklərini özlərinin və ya başqalarının əli ilə məhv etmək;

4. Dördüncüsü, müxtəlif şayiələr yaymaqla əhalini öz əli ilə məhv etmək (məsələn, Azərbaycanda daşdan yonulmuş qoçların içərisində qızıl və ya qiymətli əşya gizlədildiyi uydurmasını ortaya ataraq yerli əhalinin əli ilə həmin abidələrri məhv etmək).

"Kitabi-Dədə Qorqudun yasaqlanmasının imperiyanın əyalət-müstəmləkə düşüncəsindən doğması. Məlumdur ki, həmişə və hər yerdə imperiya maraqları güdən SSRİ rəhbərliyi mənşə və şəcərə məsələsinə xüsusi fikir verirdi. Fikrimizcə, azərbaycanlıların gəlmə elan edilməsi ideyası da buradan qaynaqlanırdı (8, 29-31).

Dünya folklor xəzinəsinin nadir incilərindən olan "Dədə Qorqud" dastanı Azərbaycan dilinin tarixi inkişafını izləmək baxımından da zəngin material verir. "Folklor dili insanın qəzavü-qədərlə, tanrı ilə, ilahi qüvvə ilə ünsiyyət dilidir. Folklor dili insanla insanın ən yetkin, doğru-dürüst, təbii ünsiyyət yoludur. Folklor dilinin sadəliyi içində dilin sonsuz mürəkkəbliyinin potensial qüvvəsi – mayası yaşayır. Milli-etnik, etnoqrafik, psixoloji, estetik, sosioloji, antropoloji, özəlliklərin qaynağı, məbədi olan folklor elə bir fenomendir ki, istər mifoloq, istər filosof, istərsə etnoqraf və ya yazıçı ondan vaz keçə bilməz. Bu mənada türk folklorunun təbii ifadə forması kəmiyyət və keyfiyyət dəyərlərinin yekunu olan dastanlardır. Dastan sintezdir və özündə musiqi rəqs, hərəkət özəlliklərini birləşdirir (4, 198). Araşdırmalar göstərir ki, türk-oğuz təfəkkürünün öyrənilməsində əvəzsiz rolu olan "Dastan"ın hərtərəfli tədqiq olunması çox məqamalara aydınlıq gətirməkdə davam edir. Hər şeydən öncə "Kitabi-Dədə Qorqud" folklor dilinin təməl örnəyidir. Hər xalqın öz dilində yaranan folklor ana dilinin əbədi yaddaşıdır və əslində dildə olan hər sözün el dilində müəyyənləşən, sabitləşən və dəyişən elə bir dəyəri var ki, məhz o dəyər sözün mahiyyətini açmaqda açar rolunu oynayır. Dits qərara gəlmişdir ki, "Dastan"ın dili "Giriş"də bəhs edilən Osmanlı sülaləsinin dövründən çox qədimlərə gedib çıxır. "Dədə Qorqud" dastanlarında 2721 söz mövcuddur. Hesablamalar göstərir ki, böyük əksəriyyəti Mahmud Kaşğari "Divan"ında işlənmiş bu sözlərin təxminən 300-dən bir az çoxu müasir Azərbaycan dili üçün arxaikdir. "Dədə Qorqud" dastanının dili türk dilinin qədim leksik qatı ilə bağlıdır.

**Nəticə:** Qədim türk epik təfəkkürünün ən dəyərli nümunəsi olan "Kitabi-Dədə Qorqud" ilk olaraq şifahi şəkildə formalaşmış, sonradan yazıya köçürülmüşdür. "Dastan" yarandığı dövrün izlərini dolğun şəkildə özündə əks etdirir. "Dastan" əsrlərin süzgəcindən keçərək formalaşmışdır və yaşamaqda davam edir. Odur ki, "Dastan"ın müxtəlif istiqamətlərdə tədqiqi daim aktualdır, diqqətdədir.

**ƏDƏBİYYAT**

1. Əliyev H. Milli varlığımızın mötəbər qaynağı. / Dədə Qorqud dünyası (məqalələr). Bakı: Öndər Nəşriyyat, 2004, s. 6-17

2. Kitabi-Dədə Qorqud. Bakı, "Yazıçı", 1988.

3. Kitabi-Dədə Qorqud ensiklopediyası. Bakı, "Yeni nəşrlər evi", 2000, II cild

4. Kitabi-Dədə Qorqud. Bakı, "Öndər" nəşriyyat, 2004, 376 s.

5. Həbibbəyli İ. Qorqud müdrikliyi və müasirlik. 525-ci qəzet, 2017, s.3.

6. Hüseynov E. "Kitabi-Dədə Qorqud" dastanı psixoloji-etnik mınbə kimi. "Dədə Qorqud". Elmi-ədəbi toplu III (82). Bakı, 2023, 204 s., s. 19-23.

7. Qafarlı R. "Kitabi-Dədə Qorqud" Azərbaycan türklərinin ədəbi zirvəsi və mənəviyyat simvoludur. "Dədə Qorqud". Elmi-ədəbi toplu IV (79). Bakı, 2022, 186 s., s. 3-13.

8. Qasımov C. "Dədə Qorqud kitabı" və milli-etnik yaddaşın repressiya tarixi/ "Dədə Qorqud" 2009, IV, s. 11-13.

9. Azərbaycan qorqudşünaslığı. (Tərtibçi və ön sözün müəllifi fil.e.d., prof. Ramazan Qafarlı). Bakı, Elm və təhsil. 2020.